Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 79-83
DOI:10.30546/gdu.3.2024

UOT:902.

# NAXÇIVANIN SON TUNC DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ

***Mehdiyeva Həqiqət Şaadət qızı, Vəliyeva İndira Ocaqqulu qızı***
***Bakı Dövlət Universiteti Qazax filialı***
*heqiqet.mehdiyeva.91@mail.ru*
indirasemedova7@gmail.com

**Xülasə:** *Naxçıvan ərazisində Tunc dövrünə aid I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, Şortəpə və onlarla digər yaşayış yerləri, Dizə, Qarabulaq və Xornu nekropolu kimi qəbir abidələri tədqiq edilmişdir. Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji mədəniyyət Kür-Araz mədəniyyəti adlandırılmışdır. Bu mədəniyyətin öyrənilməsində müəyyən lokal xüsusiyyətlər daşıyan çoxtəbəqəli yaşayış yerləri əsas yer tutur. E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial- iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır.*

**Açar sözlər:** Naxçıvan, I Kültəpə, tunc dövrü, abidələr, siklopik tikililər, Maxta
**Ключевые слова:** Nakhchivan, Kultepa I, bronze age, monuments, cyclopean buildings, Makhta
**Key words:** Нахичевань, Кюльтепа I, бронзовый век, памятники, циклопические постройки, Махта

Naxçıvan ərazisində son tunc və ilk dəmir dövrü abidələrinə sıx rast gəlinir. Naxçıvanın bu dövr abidələri yaşayış yerləri və qəbir abidələrindən ibarətdir. E.ə. II minilliyin sonu və I minilliyin əvvəlində bu regionun tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Naxçıvanın bu dövrə aid mədəniyyət abidələrinin bir qrupu boyalı, digər qrupu isə boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir. Qızılburun və Plovdağdan aşkar olunmuş boyalı keramika ilə fərqlənən qəbir abidələri üçün tək, cüt və kollektiv dəfnlər xarakterikdir. Boz rəngli keramika ilə seçilən qəbir abidələrini üç qrupa bölmək olar. Birinci qrupa skeletsiz qəbir abidələri daxildir. Arxeoloji materialların təhlilinə əsasən bu qrupun Orta Tunc dövrü mədəniyyətinin davamı olduğunu demək olar. İkinci qrupa kollektiv dəfnlərlə xarakterizə edilən torpaq qəbirlər, üçüncüyə isə kollektiv dəfnlərin xarakterik olduğu daş qutu tipli qəbirlər aiddir. Sonuncu iki qrupda Xocalı-Gədəbəy mədəniyyətinin təsiri əks olunmuşdur. Bu dövrdə Azərbaycan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi getmişdir. Azərbaycanın şimalında təşəkkül tapan bu mədəniyyət oradan Azərbaycanın cənub rayonlarına, o cümlədən Naxçıvana yayılmışdır. Naxçıvan ərazisində bu mədəniyyətin təsiri Kolanı, Sarıdərə, Haqqıxlıq və digər àbidələrdə izlənilmişdir [1,73-74].

Qarnıyarıq yaşayış yeri 1987-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Yaşayış yerindən toplanmış materiallar gil qab qırıqları, əmək alətləri və silahlardan ibarətidr. Gil qablar çəhrayı rəngdə bişirilmişdir.Yaşayış yerinin cənub tərəfində Kolanı nekropolu yerləşir. 1986-1989-cu illərdə aparılan qazıntılar zamanı bu nekropolda dağıdılmış qəbirlər də daxil olmaqla 16 qəbir abidəsi tədqiq edilmişdir. Nekropoldakı daş qutu tipli qəbirlərin tikintisində bir standartlıq yoxdur. Bəzi qəbirlər dördkünc formalı, bəziləri çoxbucaqlı, bəziləri isə küncləri dəyirmiləşdirilmiş dördbucaq formalıdır. Qəbirlər torpaq da açılmış çuxurlarda yastı sal daşları yan-yana qoymaqla qurulmuşdur. Daş qutuların böyük sal daşlardan qurulması, xüsusilə onların İman Dərəsi adlı uzaq bir məsafədən gətirilməsi şübhəsiz ki, tayfaların qədim adətləri ilə bağlı olmuşdur. Lakin buna baxmayaraq daş qutuların tikintisindəki çətinliklər sal daşlardan əlavə, daş hörgülərdən də istifadə olunmasını zəruri etmişdir [2,133]. Kolanı nekropolunun qəbirləri üçün, başlıca olaraq,

DOI:10.30546/gdu.3.2024

kollektiv dəfnlər xarakterikdir. Antropoloq R.Qasımova Kolanı nekropolundan aşkar olunan kəllə sümüklərini tədqiq edərək onların yerli etnoslara aid olduğunu və müasir azərbaycanlıların etnogenezinin əsasında dayandığını qeyd etmişdir. Lakin, bəzi qəbirlərdə insan skeletinə rast gəlinməmişdir.

Kolanı nekropolundakı qəbirlərin tədqiqi cəmiyyətdə müəyyən sosial bərabərsizliyin olduğunu göstərir. Məzarların bir qismi iri sal daşlarla qurulub, daş hörgülərlə tamamlandığı halda, digər qəbirlər kiçik daş lövhələrlə bəsit çuxurlarda düzəldilmişdir. Sosial bərabərsizliyin olduğunu qəbirlərin avadanlığı arasındakı fərqlər də təsdiq edir. Böyük qəbirlərdən birinin divarının mifoloji rəsmlərlə naxışlanması onun qəbilə rəhbərlərinə aid olduğunu sübut edir [2,134].

Qəbirlərin torpaq örtüyündən və içərisindən xeyli gil məmulatı, tunc silah və bəzək əşyaları, obsidian ox ucluqları, əqiq və balıqqulağından hazırlanmış muncuqlar da tapılmışdır. Bəzək əşyaları içərisində balıqqulağı keçirilmiş sırğalar orijinallığı ilə seçilir. Nekropolda aşkar olunan xəncərlər 7 ədəd olub əsasən yastıtiyəlidir. Onların bəzisinin şəbəkəli qurşağı və konusvari başlığı vardır. Xəncərlərin biri yerli və Ön Asiya tipli silahların xüsusiyyətlərini özündə birləşdirir. Onların bəzisi Xocalı- Gədəbəy, bəzisi isə Naxçıvan mədəniyyəti üçün xarakterikdir [6,267-269].

Kolanı nekropolunda qəbirlərə balıqqulağı qoyulması adətinə də rastlanmışdır. Bu faktlar Azərbaycan xalqı içərisində indiyədək davam edən su inancının olduqca qədim tarixə malik olduğunu göstərir. Məlum olduğu kimi, Ön Asiya abidələrində qəbirlərə balıqqulağı qoyulmasına Neolit dövründən başlayaraq rastlanmışdır.

Sarıdərə nekropolunda diqqətçəkici xüsusiyyətlərdən bir idə 3 №-li qəbrin 5 №- li qəbir üzərində qurulmasıdır. Qazıntı zamanı 3 №-li qəbirdən pis saxlanmış insan skeletinin qalıqları, xırdabuynuzlu heyvanlar sümükləri, köpək kəlləsinə aid alt çənə sümüyü və dələ kəlləsi aşkar edilmişdir. Bu qəbrin altında yerləşən 5 №-li qəbirdən isə 4 insan skeleti, xeyli bəzək əşyaları və gil qab parçaları əldə edilmişdir [1,102].

Sarıdərə qəbirləri üçün kollektiv dəfnlər xarakterikdir. Skeletlər qarışıq halda olduğu üçün onların sayını yalnız kəllələrə görə müəyyən etmək mümkün olmuşdur. Qəbirlərdə skeletlərin sayı 3-lə 11 arasında dəyişir. Daş qutuların bəzisində yan daşların olmaması, dəfnin yan daşları çıxarılaraq aparıldığına işarə etsə də, digər qəbirlərdə belə vəziyyətə rastlanmaması bir qədər şübhə doğurur. Ola bilsin ki, bəzi qəbirlərin qapaq daşları açılaraq dəfnlər aparılmışdır. Alt çənənin kəllədən xeyli aralıda tapılması bəzi skeletlərin sümüklərinin çatışmaması da maraq doğurur. Buna bənzər dəfn adətinə Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbirlərdə də rastlanmışdır [3,62-114].

Sarıdərə daş qutu tipli qəbirlərin bənzərlərinə Naxçıvanda Kolanı, Bayəhməd, Haqqıxlıq və Qızılburun nekropolunda rastlanmışdır. Şimali Azərbaycanda Gədəbəy, Quşçu, Bayan, Xaçbulaq və digər nekropolların daş qutu tipli qəbirləri Sarıdərə daş qutuları ilə ortaq xüsusiyyətlərə malikdir [1,33].

Haqqıxlıq nekropolunda 1979-cu ildə V.H.Əliyev və A.Q.Seyidov tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. 1990-cı ildə bu nekropoldakı qəbirlərin ikisi V.B.Baxşəliyev tərəfindən tədqiq edilmiş və dağıdılmış qəbirlərin materialları toplanmışdır. Tədqiq edilmiş qəbirlərdə kollektiv dəfn adəti qeydə alınmışdır [6,190].

Birinci qəbirdən tədqiqat nəticəsində bir ədəd tunc xəncər, boz və çəhrayı rəngli küpə, kasa, çaynik və qədəh tipli qablar tapılmışdır. Çaynik tipli qabın gövdəsinin və lüləyinin bir hissəsi saxlanmışdır. Onun üzəri qövsşəkilli cızma xətlər, şırım və ştampla vurulmuş ornamentlə naxışlanmışdır. Qədəh tipli qab bikonus formalı olub ağzının kənarı azacıq xaricə doğru əyilmiş və dəyirmiləşdirilmişdir. Gövdəsinin yuxarı hissəsində halqaşəkilli qulpu vardır. Qulpunda çıxıntı düzəldilmişdir. İkinci qəbir də daş qutu tipli olub, üzəri kiçik daşlarla

DOI:10.30546/gdu.3.2024

qapadılıb. Qəbirdə 0,4m dərinlikdə üzü şərqə, sağ böyrü üstə dəfn edilmiş bir insan skeletinə rast gəlinmişdi. Skeletin ətrafında heyvan və quş fiqurları, gil qab qırıqları aşkar edilmişdir. Kameranın qərb hissəsində 0,9 m dərinlikdə daha iki kəllə aşkar olunmuşdur. Onlar üst-üstə düşmüş və tamamilə dağılmışdı. Bu kəllələrin ətrafında əqiq muncuqlar, tunc pilək və plastinkanın qırıqları aşkar olunmuşdu. Qəbirin şimal-qərb hissəsində 1,2 m dərinlikdə daha bir kəlləyə təsadüf olunmuşdu. Onun ətrafından heyvan sümükləri tapılmışdı. Dəfn adətinə görə bu qəbirlər Sarıdərə və Kolanı qəbirləriylə eynidir. Müşahidələr göstərir ki, skeletlərin bir qismi bükülü vəziyyətdə olmuşdur. Skeletlərin qarışıq olması dəfn zamanı onların yerinin dəyişdirildiyini göstərir. Qəbirdən aşkar edilmiş gil məmulatı çəhrayı və boz rəngli gil parçalarından və tunc əşyalardan ibarətdir [2,263-265]. Aşkar edilən gil məmulatı Xocalı-Gədəbəy mədəniyyətinin xarakterik xüsusiyyətlərini özündə əks etdirir. Naxçıvanda qeydə alınmış qala tipli yaşayış yerlərinə Çalxanqala, Vayxır qalası, Qız qalası və digər abidələri nümunə göstərmək olar.

Vayxır qalası II Kültəpədən şimalda, Vayxır kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində, Qızılboğaz keçidi üzərində yerləşir. Bu abidə ümumi planda altıbucaqlıdır. Qalaya giriş şərq tərəfdən olmuşdur. Ora hər iki tərəfdən müdafiə əhəmiyyətli bürclərlə möhkəmləndirilmişdir. Onun şimal divarı yaxınlığında üç yerdə qala bürcləri tikilmişdir. Bürclərdən ikisi dördkünc planlıdır, üçüncü bürc isə bir qədər fərqli tikilmişdir. Yaşayış yerindəki evlər düzbucaqlı planda olmuşdur. Qala yalnız kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir [7,86-87].

V.Baxşəliyev qalanın tikilmə dövrünü e.ə. II minilliyin ortaları və ya ikinci yarısına aid edir [7,185].

D.A.Axundov və V.H.Əliyev abidənin tikinti texnikasını tədqiq etmiş, qalanın tikilmə tarixinin e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid olduğunu qeyd etmişlər. Yaşayış yeri tikinti texnikasına görə Çalxanqala, Oğlanqala ilə oxşarlıq təşkil edir. Abidədə geniş miqyaslı arxeoloji qazıntılar aparılmamış, yalnız yerüstü maddi-mədəniyyət nümunələri əsasında öyrənilmişdir. Buradan əldə olunmuş yerüstü maddi-mədəniyyət nümunələri, Son Tunc-Erkən Dəmir dövrünə aid boz və qara rəngli gil qab qırıqlarından və tunc asmadan ibarətdir [4,192].

Çalxanqala da Vayxır qalasında olduğu kimi, burada da arxeoloji materiallara rast gəlinməmişdir. Ehtimal ki, qaladan daimi yaşayış yeri kimi deyil, təhlükə yarandıqda müdafiə məqsədilə istifadə edilmişdir.

Çalxanqalanın cənub tərəfində tikilmiş yalnız bir müdafiə divarı var. Qalanın içərisində düzbucaqlı formalı üçotaqlı ev qalığı vardır. Həmçinin cənub tərəfdə, təpənin ətəyində daş təməl üzərində tikilən düzbucaqlı otaq qalıqları qeydə alınmışdır [4,189].

V.H.Əliyev Çalxanqalanı Azərbaycandakı siklopik tikintilər sırasına daxil etmiş, toplanılan boz rəngli keramikalar əsasən buranın tikilmə tarixini müəyyənləşdirmişdir. O, yaşayış yerinin tikilmə tarixini e.ə. XX-XV əsrlərə aid etmişdir[5,52].

O.Belli, V.Sevin abidənin öyrənilməsi sahəsində apardıqları arxeoloji tədqiqatlar nəticəsində, qalanın tikilmə tarixinin e.ə. II mininlliyin ortalarına aid olduğunu qeyd etmişlər [6,24].

Yaşayış yerində Son Tunc-Erkən Dəmir dövrünə aid memarlıq qalıqları V.H.Əliyevlə yanaşı olaraq V.İ.Kərimov tərəfindən də müəyyən olunmuşdur. V.İ.Kərimov yaşayış yerindəki Narınqalanın dördkünc planda olduğunu, rizalitlərlə möhkəmləndirildiyini göstərmişdir.

2001-ci ildə V.B.Baxşəliyev tərəfindən abidədə aparılmış arxeoloji araşdırmalar nəticəsində oradakı müdafiə divarlarının dəqiq ölçüləri götürülməklə yanaşı, Erkən Dəmir dövrünə aid keramika məmulatları toplanılmışdır [3,136].

DOI:10.30546/gdu.3.2024

Qız qalası yaşayış yeri Şərur rayonunun Aşağı Yaycı kəndindən cənub-qərbdə, Uzunqaya dağ silsiləsinin Arpaçaya endiyi yerdə yerləşir. Yaşayış yerində təsadüf edilən tikinti qalıqları burada vaxtilə daşdan tikilmiş binaların olduğunu göstərir. Abidənin cənub qərb tərəfində iri daşlardan tikilmiş divar qalıqları tikinti texnikasına görə Oğlanqala tikililərini xatırladır. Yerüstü materiallar çəhrayı və boz rəngdə bişirilmiş gil qab hissələrindən, dən daşları və əmək alətlərindən ibarətdir. Boz rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, bəzi qabların üzərində qonur ləkələr saxlanmışdır. Onlar əsasən qabların gövdə və oturacaq hissəsindən ibarət olub forma verməyən fraqmentlərlə təmsil olunmuşdur. Keramika məmulatı cızma ornamentlə naxışlanmışdır. Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların fraqmentlərindən ibarət olub, narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Qabların xarici səthi qırmızı boya ilə örtülərək yaxşı cilalanmışdır. Çəhrayı rəngli gil məmulatının bir qismi boyalı qablardan ibarətdir. Kasa, küpə, badya tipli qabların bir qrupunun üzəri qırmızı rəng üzərindən qara rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. İkinci qrup boyalı qabların mərkəzi hissəsi sarı anqobla örtülmüş, qırmızı və qara rənglə naxışlanmışdır. Yerüstü materialların analizinə əsasən yaşayış yeri e. ə. II-I minilliklərə aid edilmişdir [4,94- 95]

Küpələrdən birinin ağzının kənarından gövdəsinə birləşən qulpu ziqzaq şəklində dişəklənmişdir. Gil məmulatı əsasən boz rəngdə bişirilmiş kasa, piyalə və küpə tipli qablardan və onların müxtəlif hissələrindən ibarətdir. Bu nekropoldan aşkar olunmuş kasa və küpə tipli qablar I Kültəpə və II Kültəpə yaşayış yerlərinin üst təbəqəsindən, Sarıdərədən, Kolanıdan və Şahtaxtından məlumdur. Zeyvədən tapılmış kasalar I Kültəpə və Şahtaxtından tapılmış kasalarla eyniyyət təşkil edir. Qulpu ziqzaqvari dişəklənmiş küpələr Naxçıvanda Qızılburun abidəsindən məlumdur [12,90]. Zeyvə nekropolu Zeyvə kəndinin yaxınlığında tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. Qəbirlərin formasını və tipini müəyyənləşdirmək mümkün olmamışdır. Ola bilsin ki, onlar torpaq qəbirlərdən ibarət olmuşdur. Buradan tapılan qabların xarici səthi cilalanmış, bəzisinin xarici səthi konnelyur ornamentlə naxışlanmışdır. Kasaların ağzının kənarında şaquli formada deşilmiş qulaqcıq şəkilli çıxıntı vardır.

### ***Ədəbiyyat***


1. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar (2001-2002). Bakı:Nafta- Press, 2003, 120 s.
2. Azərbaycan Sovet Ensiklopediyası. On cilddə. IX cild. Bakı 1986, 624 s.
3. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. I cild. Bakı: Elm, 2006, 236 s.
4. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 301 s.
5. Baxşəliyev V.B., Quliyeva F. Naxçıvanın tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s.
6. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti (e.ə. VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). Bakı: Elm, 2004, 320 s.
7. Baxşəliyev V.B., C.Marro, Aşurov S.H. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri // First Preliminary Report: the 2006-2008 seasons). Bakı: Elm, 2010, 154 s.

DOI:10.30546/gdu.3.2024

**АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ ПОЗДНЕЙ БРОНЗОВОГО ВЕКА НАХЧИВАНА**

***Мехтиева Хакикат Шаадат, Валиева Индира Очаггулу***

***Резюме***

На территории Нахчывана на территории Нахчывана изучены такие могильные памятники, как Кюльтепе I, Кюльтепе II, Овчулартепеси, Махта Кюльтепеси I, Шортепе и десятки других поселений, некрополи Диза, Карабулаг и Хорну. Археологическая культура, обнаруженная на памятниках эпохи ранней бронзы, называется Кура-Аразской культурой. В изучении этой культуры ключевое место занимают многослойные поселения с определенными местными особенностями. ДО Н.Э. В конце III тысячелетия социально-экономические изменения, произошедшие в южных регионах Азербайджана, охватили и Нахчыван, и в этой области сформировалась новая культура, характеризующаяся расписными сосудами.

**LATE BRONZE AGE ARCHAEOLOGICAL MONUMENTS OF NAKHCHIVAN**

***Mehdiyeva Hagigat Shadat, Valiyeva Indira Ocaqqulu***

***Summary***

In the territory of Nakhchivan, grave monuments such as Kultepe I, Kultepe II, Ovchulartepesi, Makhta Kultepesi I, Shortepe and dozens of other settlements, Diza, Karabulag and Khornu necropolis were studied in the territory of Nakhchivan. The archaeological culture discovered from the monuments of the Early Bronze Age is called Kura-Araz culture. In the study of this culture, multi-layered settlements with certain local characteristics occupy a key place. B.C. At the end of the 3rd millennium, the socio-economic changes that took place in the southern regions of Azerbaijan also covered Nakhchivan, and a new culture characterized by painted vessels was formed in this area.

***Rəyçi: dosent Arif Veyisov***
***İctimai və təbiət fənləri kafedrasının 21 may 2024-cü il tarixli iclasın 17 saylı protokolu***
***Daxil olma tarixi 16 sentyabr 2024-cü il***